**UOT 94(479.242)**

# İSLAM YAZILI ABİDƏLƏRİNİN NAXÇIVAN SƏHİFƏLƏRİ

***Hacıfəxrəddin Yəhya oğlu Səfərli***
***AMEA Naxçıvan Bölməsi***
*hacifexreddin@yahoo.com.tr*

***Abbas Qadir oğlu Seyidov***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
*abbas.seyidov@gmail.com*

**Açar sözlər:** *Naxçıvan, epiqrafika, abidə, islam mədəniyyəti, tədqiqatçı-alim*

*Naxçıvan ərazisində islam epiqrafik abidələrinin öyrənilməsinə hələ XX əsrin 20-ci illərindən başlanılmışdır. Tədqiqatçı İ.Əzimbəyov muxtar respublika ərazisində yerləşən bir neçə abidə ilə tanış olmuş, onların bir qismini oxumuşdur. Əsrin 40-cı illərində Ə.Ələsğərzadənin gərgin əməyi sayəsində epiqrafik abidələrin bir neçəsi elmi dövriyyəyə çıxarılmışdır. Naxçıvan epiqrafik abidələrinin öyrənilməsində M.Nemətin rolu danılmazdır. Bu abidələrin bəziləri 60-70-ci illərdə S.Kərimzadənin tədqiqatları dairəsinə daxil olmuşdur. 70-ci illərin sonundan başlayaraq bu günədək muxtar respublika ərazisində yerləşən islam yazılı abidələri M.Nemətin tələbəsi olmuş H.Səfərli tərəfindən öyrənilməkdədir. Onun tədqiqatları ilə Naxçıvan ərazisində onlarla yeni abidə vətəndaşlıq pasportu almışdır.*

# НАХЧЫВАНСКИЕ СТРАНИЦЫ ПИСЬМЕННЫХ ПАМЯТНИКОВ ИСЛАМА

***Гаджифахраддин Сеферли***
***Аббас Сеидов***

**Ключевые слова:** *Нахчыван, эпиграфика, памятник, исламская культура, ученый- исследователь*

*Эпиграфические памятники ислама в Нахчыване изучаются с 20-х гг. XX века. В то время исследователь И.Азимбеков, рассмотрев часть памятников автономной республики, прочел письмена некоторых из них.*

*В 40-х гг. ряд эпиграфических памятников был введен в научный оборот благодаря усердным трудам А.Алескерзаде. Бесспорна роль М.Неймата в изучении эпиграфических памятников Нахчывана. Исследования С.Керимзаде 60-70-х гг. охватывало часть этих памятников. С конца 70-х по сей день письменные памятники ислама автономной республики изучаются Г.Сеферли, который был учеником М.Неймата. Десятки новых памятников были документированы в Нахчыване благодаря его исследованиям.*

## NAKHCHIVAN PAGES OF THE WRITTEN MONUMENTS OF ISLAM

***Hajifakhraddin Safarli***
***Abbas Seyidov***

**Key words:** *Nakhchivan, epigraphy, monument, Islamic culture, research scientist*

*Epigraphic monuments of Islam in Nakhchivan have been studied since the 20s of the twentieth century. At that time, researcher I.Azimbekov examined some of the monuments of the autonomous republic and read the inscriptions of some of them. In the 40s, a number of epigraphic monuments were put into scientific circulation thanks to the hard work of A.Aleskerzade. The role of M.Naemat in the study of epigraphic monuments of Nakhchivan is indisputable. Research of S.Kerimzade of the 60-70s covered some of these monuments. From the end of the 70s to this day, the written monuments of Islam of the autonomous republic have been studied by H.Safarli, a student of M.Naemat. Dozens of new monuments have been documented in Nakhchivan thanks to his research.*

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən və ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisi müxtəlif dövrlərə aid tarixi, arxeoloji, memarlıq və epiqrafik abidələri ilə fərqlənir. Məlum olduğu kimi, 622-ci ildə məkkəli Məhəmmədin Mədinəyə hicrəti ilə İslam dini yaranır. Mənbələr göstərir ki, ərəblərin İran üzərinə ilk hücumları 632-ci ildə, Əbu-Bəkrin xəlifəliyi dönəmində baş verib. 637-ci ildə Sasani dövlətinin paytaxtı Ktesifon (Mədain) şəhərinin tutulması ərəblərin şimala yolunu açır. Bu döyüşdə Azərbaycandan 80 min nəfərlik ordu iştirak etmişdi [1, s.71]. Ərəblərin Azərbaycana ilk hücumları da bu illərə təsadüf edir. 642-ci ildə xəlifə Ömərin orduları Nəhavənd döyüşündə İran ordusuna dağıdıcı zərbə vurur. Xəlifə Osmanın hakimiyyəti dövründə ərəb orduları sərkərdə əl-Valid ibn Ukbanın

rəhbərliyi ilə Azərbaycana göndərilir. Sərkərdə Səlman ibn Rəbiənin başçılığı ilə 12 minlik ərəb ordusu Araz çayını keçərək Naxçıvan da daxil olmaqla, bir sıra torpaqları viran qoyur və çoxlu qənimət ələ keçirir [2, s.164-166]. Naxçıvanın ərəblər tərəfindən tam işğalı 652-653-cü illərə təsadüf edir [3, s.6].

Bundan sonra islam dininin təbliği ilə bağlı məscidlər, imamzadələr, ziyarətgahlar, xanəgahlar və s. İctimai binalar tikilir. Bir çox tikililər, qəbir daşları ibadətgahlar üzərində Quran-i-Kərimdən müxtəlif ayə və surələrin, ruhani şeyxlərinin adlarının qeyd olunması, tarix göstərilməsi islam yazılı abidələrinin yaranmasına səbəb olur. Bu təhrifolunmaz, bəlkə də yeganə sənədlər bir çox həqiqətləri üzə çıxarmağa şərait yaradır. Təəssüflər olsun ki, uzun illər ateizm təbliğatı altında bu epiqrafik abidələrin bir qismi dağıdılıb. Bütün çətinliklərə baxmayaraq, Azərbaycanın tanınmış epiqraf alimləri yüz ilə yaxın bir dövrdə bu yazılı abidələr üzərində elmi-tədqiqat işləri aparmış və tarıximızın müəyyən qaranlıq səhifələrini işıqlandırmışlar.

Naxçıvan ərazisində islam epiqrafik abidələrinin öyrənilməsinə hələ XX əsrin 20-ci illərindən başlanmışdır. Tədqiqatçı İ.Əzimbəyov muxtar respublika ərazisində yerləşən bir neçə abidəyə baxış keçirmiş, onlardan bir neçəsinin kitabəsi ilə tanış olmuş və oxumuşdur [4]. Yenə də həmin əsrin 40-cı illərində Ə.Ələsğərzadənin gərgin əməyi sayəsində epiqrafik abidələrin bir neçəsi elmi dövriyyəyə çıxarılmışdır [5]. Naxçıvan epiqrafik abidələrinin öyrənilməsində M.Nemətin rolu danılmazdır.

Azərbaycan müsəlman epiqrafikası elminin banisi sayılan Məşədixanım Nemət Naxçıvan Muxtar Respublikasında ilk dəfə keçən yüzilliyin 50-ci illərinin sonlarında olmuşdur. Həmin vaxt ilk dəfə Naxçıvan şəhərindəki Came (Cəfəriyyə) məscidinin kitabəsini, Ordubad şəhərinin şərq tərəfində yerləşən "Malik İbrahim" qəbiristanlığında bir neçə məzar kitabəsini tədqiq etmişdir. Həmçinin, alim vaxtilə Naxçıvanda tədqiqatçılar tərəfindən tədqiq olunan bir neçə kitabəni (Ordubad şəhər Came məscidinin kitabəsini, Ordubad rayonundakı Vənənd kənd Came məscidinin kitabəsini, Ordubad rayonunun Nüsnüs kəndindəki pirin kitabəsini və s.) də tədqiq etmiş, onların mükəmməl oxunuşunu həyata keçirmiş, sələflərinin oxuya bilmədiyi sözləri oxuyaraq dəqiqləşdirmişdir.

Alim Naxçıvan Muxtar Respublikası ərazisində apardığı epiqrafik tədqiqatların nəticələrini 1963-cü ildə nəşr etdirdiyi "Azərbaycanın epiqrafik abidələri" monoqrafiyasına [6] və 1968-ci ildə alimlik dərəcəsi almaq üçün müdafiə etdiyi doktorluq dissertasiyasına daxil etmişdir. O, 1981-ci ildə nəşr etdirdiyi "Мемориальные памятники Азербайджана" (Azərbaycanın xatirə abidələri) kitabında [7, s.26] Ordubad şəhərində tədqiq etdiyi məzar kitabələrindən bəhs etmişdir.

"Azərbaycanın epiqrafik abidələri korpusu" çoxcildliyinin hazırlanması ilə əlaqədar XX əsrin 80-ci illərinin sonlarında Naxçıvan Muxtar

Respublikasına yenidən səfər edən M.Nemət bölgənin müxtəlif yaşayış məskənlərində olmuş, epiqrafik tədqiqatlar aparmış, bir sıra yeni kitabələr qeydə almış, onların fotosunu, estampını, ölçülərini götürmüş, mətnlərini oxuyaraq rus dilinə tərcümə etmişdir. Alim Naxçıvanda apardığı tədqiqatlarının nəticələrini tədqiq etdiyi kitabələrin foto-şəkilləri və qrafik təsvirləri ilə birlikdə 2001-ci ildə nəşr etdirdiyi “Корпус эпиграфических памятников Азербайджана” (Azərbaycan epiqrafik abidələrinin korpusu) çoxcildliyinin III cildinə [8] daxil etmişdir.

O, tarixi Azərbaycan torpaqları olan müasir Ermənistan Respublikası, Gürcüstan və Dağıstan ərazilərində qalmış müsəlman epiqrafikası abidələrini də öyrənmiş, bu sahədə çox ciddi elmi nailiyyətlərə və nəşrlərə imza atmışdır. Onun bu yerlərdə, xüsusilə Ermənistan Respublikası ərazisində tədqiq etdiyi kitabələrin nəşr olunduğu əsərlər çox böyük əhəmiyyət kəsb edir [9, s.289]. Təsadüfi deyil ki, Sovet Epiqrafika elminin banilərindən və ən görkəmli nümayəndələrindən biri olan V.A.Kraçkovskaya 1976-cı ildə Moskvada nəşr olunan “Sovet tarixi ensiklopediyası”nın 16-cı cildində dünyada müsəlman epiqrafikası ilə məşğul olan ən məşhur bir neçə alimin adı ilə birlikdə M.Nemətin də adını qeyd etmişdir.

M.Nemət tədqiq etdiyi kitabələrin özlərində əks etdirdiyi təkzibolunmaz və başqa mənbələrdən məlum olmayan faktları əsasında Naxçıvanın orta əsrlər dövrü siyasi, iqtisadi və mədəniyyət tarixinin bir sıra qaranlıq və dərindən tədqiqinə ehtiyac olan məsələlərinə aydınlıq gətirmişdir. Alim bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında çoxlu yaşayış məskəninin yaranma tarixini dəqiqləşdirmiş, onlardan bəzilərinin adlarının toponimika ilə məşğul olan alimlər üçün dəyərli mənbə olan ilkin variantını müəyyənləşdirmişdir. Həmçinin, tədqiqatçı Naxçıvan ərazisində dövrümüzədək gəlib çatan yüzlərlə tarix-memarlıq abidəsinin təyinatını, sifarişçisini, kimin xatirəsinə inşa edildiyini, inşa tarixini, memarının adını aşkar edərək elmi dövriyyəyə daxil etmişdir.

Kitabələrdə qeyd olunan istilahlar, xüsusilə, titul və epitetlər hərtərəfli araşdırılmış, onların əsasında Azərbaycanda feodal cəmiyyətinin mürəkkəb strukturu, ayrı-ayrı şəxsiyyətlərin ölkənin ictimai-siyasi həyatındakı yeri və rolu öyrənilmiş, təhlil edilmişdir. Bu titul və epitetlərin sayəsində alim orta əsrlərdə Azərbaycan dövlət aparatında müxtəlif vəzifələr tutan dövlət xadimlərinin, alimlərin, sənətkarların, sufi şeyxlərinin və s. adlarını, qəbirlərinin yerini, vəfat tarixini müəyyən etmiş, elmi dövriyyəyə daxil etmişdir. Bu titul və istilahların təhlili əsasında tədqiqatçı Azərbaycanın sosial-siyasi tarixi, inzibati ərazi bölgüsü, dövlət quruluşu və idarəsi məsələlərinin bir sıra problemlərinə aydınlıq gətirmişdir.

Azərbaycanın müxtəlif yerlərində, həmçinin tarixi Azərbaycan torpaqlarında tədqiq etdiyi kitabələrin köməyi ilə M.Nemət müsəlman Şərqində VIII yüzillikdən etibarən təşəkkül tapan və Azərbaycanın bir sıra bölgələrində

fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə mənsub xanəgahların fəaliyyətini təhlil etmişdir. Alimin qənaətincə, Naxçıvan ərazisində XII-XIX yüzilliklərdə Qələndəriyyə, Bektaşiyyə, Nəqşibəndiyyə, Xəlvətiyyə, Səfəviyyə və s. sufi cəmiyyətlərinə məxsus xanəgahlar fəaliyyət göstərmişdir. Naxçıvanın bəzi görkəmli şəxsiyyətləri bu təriqətlərin Ön Asiya və Anadoluda təbliğində böyük rol oynamışlar [10, s.3-14]. M.Nemət tərəfindən bu xanəgahlara, zaviyələrə, ribatlara rəhbərlik edən onlarla şeyxin adı müəyyən edilmişdir. Bu xanəgahlar böyük təsir gücünə malik olduğundan dövrün ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamışlar.

Tədqiqatçı alim Naxçıvanın islam yazılı abidələrində (xüsusilə məzar daşlarında) tez-tez rast gəlinən Quran ayələrini, hədisləri və digər dini xarakterli kəlamları, şiəliklə bağlı ehkamları orta əsr hökmdarlarının, xüsusilə Səfəvi şahlarının yeritdiyi siyasətin təhlili üçün mənbə kimi öyrənmişdir. Xüsusən, elegiya formalı mənzum parçaların köməyi ilə o, Naxçıvanın və bütövlükdə Azərbaycanın müsəlman Şərqi ölkələri ilə ədəbi və mədəni əlaqələrini işıqlandırmaq baxımından mühüm tədqiqatlar aparmışdır. Naxçıvan ərazisindəki pirlərin–ziyarətgahların əksəriyyətini tədqiq edən və kitabələri əsasında onların əsil mahiyyətini açan alim ateizm təbliğatına geniş rəvac verilən Sovet hakimiyyəti illərində onlara xüsusi əsər həsr edə bilməsə də, müstəqillik illərində öz arzularını reallaşdıra bilmişdir.

Naxçıvanda müxtəlif təyinatlı abidələr üzərindəki kitabələri tədqiq etməklə kifayətlənməyən görkəmli epiqraf-alim M.Nemət abidələr üzərində rast gəlinən təsvirlərə və ornamentlərə də diqqətlə yanaşmış, onları qeydə almış, toplamış, bir sənətşünas kimi tədqiq və təhlil etmiş, elmi əhəmiyyətini açıqlamışdır. Onun, həmişə saxtakar erməni alimlərinin Azərbaycana qarşı ərazi iddialarında mühüm yer tutan və diqqət mərkəzində olan Naxçıvan bölgəsində apardığı tədqiqatların qiymətli sonsuzdur.

Alimin "Корпус эпиграфических памятников Азербайджана" çoxcildliyinin III cildində 344 kitabədən bəhs edir. Onlardan 34-ü indiki Ermənistan ərazisinə daxil olan tarixi Azərbaycan torpaqlarında qalan kitabələrdir. Bu kitabələri alim 1961-1963-cü illərdə tədqiq etmiş və müxtəlif vaxtlarda jurnallarda nəşr etdirmişdir. Bu kitabələrdən əldə olunan məlumatlar əsasında alim indiki Ermənistan Respublikasının yerləşdiyi ərazilərin tarixi Azərbaycan torpaqları olduğunu, ermənilərin bu ərazilərdə sonralar məskunlaşdığını təkzibolunmaz şəkildə sübuta yetirir. Həmin kitabələrin 3-ü istisna olmaqla (məhv edəlməsinin qarşısının alınması üçün 3 abidə Zəngəzurun Urud kənd qəbiristanlığından gizli şəkildə Naxçıvan Dövlət Tarix Muzeyinə gətirilmiş və hal-hazırda da orada nümayiş etdirilməkdədir), qalanları erməni millətçiləri tərəfindən məhv edilmişdir.

Tədqiqatçı 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Xanəgah kəndinin qərb tərəfində, Azərbaycan xalqının məğ-

lubedilməzlik simvoluna çevrilən Əlincəqalanın şərq ətəyində yerləşən memarlıq abidəsinin - günbəzin kitabəsini oxuyarkən deyirdi: "Bu kitabə Azərbaycanda Qaraqoyunlu hökmdarı Cahanşahın (1435-1467-ci illər) adı çəkilən yeganə kitabədir". Qeyd edək ki, o, bu kitabəni elmi dövriyyəyə daxil etməklə onun məxsus olduğu abidənin təyinatını dəqiqləşdirmiş və müəyyən etmişdir ki, bu abidə Teymur qoşunlarından müdafiə zamanı Əlincəqalanın qala rəisi olmuş Əmir Seyyid Əhməd Oğulşaminin oğlu Sahib əl-əzəm (vəzir) Hacı Məhəmməd vəfat etmiş oğlu Əmirxanın xatirəsinə ən böyük Sultan Cahanşahın zamanında, yəni 1435-1467-ci illər arasındakı zaman çərçivəsində inşa etdirmişdir.

M.Nemət Naxçıvan Muxtar Respublikasında islam dini ilə əlaqədar yaranan, XX yüzillikdə dövrün tələblərinə uyğun olaraq obyektiv şəkildə öyrənilməsi qadağan olunan, ancaq ateizm baxımından tədqiq edilən, buna görə də əsil mahiyyətləri təhrif olunan müqəddəs yerlərin – ziyarətgahların obyektiv tədqiqi ilə məşğul olan, onların əsil mahiyyətini açan ilk alimdir. Onun bu məsələyə həsr etdiyi və 1992-ci ildə və 2010-cu ildə nəşr etdirdiyi "Azərbaycanda pirlər" [11; 12] kitabında Naxçıvan Muxtar Respublikası ərazisində indi də əhali tərəfindən ziyarət edilən bir sıra müqəddəs yerlər, o cümlədən "Malik İbrahim piri", "Xanağa piri", "Şeyx Xorasan piri", "Aza piri", "Düylün piri" və s. ziyarətgahlar haqqında məlumat verilmişdir. Onun uzun illərdən bəri nəşrini gerçəkləşdirmək arzusunda olduğu 6 cildlik "Azərbaycanın epiqrafik abidələri korpusu" əsərini Azərbaycan tarix elminə çox böyük hədiyyəsi kimi qiymətləndirmək olar. Tam qətiyyətlə deyə bilərik ki, əgər Məşədixanım Nemətin bütün elmi fəaliyyətini və yaradıcılığını bir kənara qoysaq belə, I cildi Bakı-Abşeronun, II cildi Şəki-Zaqatalanın, III cildi Naxçıvan Muxtar Respublikasının, IV cildi Quba-Xaçmaz və Dağıstanın, V cildi Azərbaycanın bir neçə bölgəsinin və hazırda erməni işğalı altında olan rayonların epiqrafik abidələrinə, VI cildi mis qablar, silahlar və bayraqlar üzərindəki ərəb-fars dilli kitabələrə həsr olunmuş 6 cildlik bu fundamental əsəri müəllifinin tariximizdə əbədi yaşayacağına və gələcək tədqiqatçılar tərəfindən həmişə yad ediləcəyinə kifayət edər [9, s 291].

Naxçıvan epiqrafik abidələrinin öyrənilməsi keçən əsrin 60-70-ci illərində həm də digər alimin – S.Kərimzadənin tədqiqatları dairəsinə daxil olmuşdur [13].

Keçən əsrin 70-ci illərinin sonlarından başlayaraq bu günədək muxtar respublika ərazisində yerləşən islam yazılı abidələri M.Nemətin tələbəsi olmuş, bu məqalənin müəlliflərindən biri olan H.Səfərli tərəfindən öyrənilməkdədir [9]. Onun tədqiqatları ilə bu gün Naxçıvan ərazisində onlarla yeni abidə vətəndaşlıq pasportu almışdır.

## ƏDƏBİYYAT


1. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989, 336 s.
2. Naxçıvan tarixi, Üç cilddə, Birinci cild, Naxçıvan, Əcəmi, 2013, 451 s.
3. Vəlixanlı N.M. Naxçıvan- ərəblərdən monqollaradək. Bakı: Elm, 2005, 152 s.
4. Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах. ССР. Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2), Баку, 1929, с.295-311.
5. Алескерзаде А.А. Надписи старинных архитектурных памятников Нахичеванского края. Изв. АН Азерб. ССР, 1949, № 5, с.151-168.
6. Nemətova M. Azərbaycanın epiqrafik abidələri. Bakı: Azərbaycan EA nəşriyyatı, 1963, 157 s.
7. Нейматова М. С. Мемориальные памятники Азербайджана. Баку: Элм 1981, 76 с.
8. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI-Yeni nəşrlər evi, 2001, 216 с.
9. Səfərli H. Əsrlərin daş yaddaşında sözü qalan görkəmli alim- Məşədixanım Nemət. “Naxçıvan” Universiteti. Elmi Əsərlər, 2018 № 4 (11), s. 288-292.
10. Seyidov A.Q., Əliyeva H.M. Baba Nemətullah Naxçıvani. Böyük mütəfəkkir, elm və din xadimi. “Tarix, insan və cəmiyyət” jurnalı, Bakı, 2019, №2 (25), s. 3-14.
11. Nemət M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
12. Nemət M. Azərbaycanda pirlər. Bakı: Elm və təhsil, 2010, 212 s.
13. Керимзаде С.Д. Надписи памятников архитектуры Азербайджане XI-XIV вв. Автореферат дис. канд. ист. Наук, Баку, 1970, 37 с.